## AR NRYTN “AzInTelecom” MMC-nin Sınaq Laboratoriyası

## KEYFİYYƏT SAHƏSİNDƏ SİYASƏTƏ DAİR BƏYANNAMƏ

AR NRYTN “AzInTelecom” MMC-nin rəhbərliyi Sınaq laboratoriyasının AZS ISO/IEC 17025-2009 “Sınaq və kalibrləmə laboratoriyalarının səlahiyyətliliyinə ümumi tələblər” standartının tələblərinə uyğun fəaliyyət göstərməyini öhdəsinə götürür.

**Sınaq laboratoriyası fəaliyyətinin yüksək keyfiyyətinin təmin edilməsi üçün qarşısında aşağıdakı məqsədləri qoyur:**

- sınaq nəticələrinin qərəzsizliyinin, doğruluğunun, dəqiqliyinin və izlənilməsinin təmin edilməsini;
- sınaqların keyfiyyətinin daima artırılmasını;
- sınaqların sayının çoxaldılmasını və akkreditasiya sahəsinin genişləndirilməsini.

**Qeyd olunmuş məqsədlərə nail olmaq üçün Sınaq laboratoriyası qarşısında aşağıdakı vəzifələri qoyur:**

- Keyfiyyəti İdarəetmə Sisteminin işlənilməsini, onun tətbiqini və təkmilləşdirilməsini;
- sınaqların normativ sənədlərin və sınaq metodlarının tələblərinə uyğun olaraq həyata keçirilməsini;
- zəruri sınaq avadanlıqlarının və ölçmə vasitələrinin əldə edilməsini, onların vaxtında yoxlanma və kalibrlənməsinin keçirilməsini, avadanlıqlar parkının daima genişləndirilməsini;
- işlərə səriştəli işçi heyətinin cəlb olunmasını, heyətin səriştəliyinin daima artırılmasını;
- laboratoriyanın müvafiq şərait tələblərinə cavab verən otaq və ofis ləvazimatları ilə təmin edilməsini.

**Keyfiyyət sahəsində siyasətinin həyata keçirilməsi üzrə məsuliyyətini dərk edərək, AR NRYTN “AzInTelecom” MMC-nin rəhbərliyi aşağıdakıları öhdəsinə götürür:**

- qeyd olunmuş vəzifələri icra edərək məqsədlərinə nail olmaq üçün müvafiq şəraitin təmin edilməsini;
- laboratoriyanın akkreditasiyaya nail olmasını və akkreditasiyanın vaxtlı-vaxtında yenilənməsini;
- laboratoriya heyətinin və rəhbərliyinin cavabdehliyinin müəyyən edilməsini;
- laboratoriya heyətinin əmək haqqılarının keçirdikləri sınaqların nəticələrindən asılı olmamasının təmin edilməsini;
- qərəzsizliyin təmin edilməsini və maraqların münaqişələrinin qarşısının alınmasını;
- əldə olunmuş məlumatların məxfiliyinin təmin edilməsini.

**AR NRYTN “AzInTelecom” MMC-nin direktor müavini, direktor v.m.i.e.** ______ imza **Tağı Tağı-Zadə**

M.Y. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "AZERBAIJAN INTERNATIONAL TELECOM" MMC (AzInTelecom)

**Tarix: 09 mart 2021-ci il**

Vizalar:

| Ad və soyad | Vəzifə | İmza | Tarix (DD/MM/YYYY) |
|---|---|---|---|
| Orxan Mikayılov | Sertifikatlaşdırma departamentinin rəhbəri | | 09.03.2021 |